Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.

Heydər ƏLİYEV



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 23 sentyabr 2015-ci il № 73 (1989) Qiyməti 25 qəpik


## Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik



Hörmətli həmvətənlər!

Sizi dünya müsəlmanlarının birlik və həmrəylik rəmzi olan müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, ən səmimi arzu və diləklərimi yetirirəm.

Demokratik prinsiplərin, dini etiqad və vicdan azadlıqlarının bərqərar edildiyi Azərbaycan Respublikasında Qurban bayramı hər il dövlət səviyyəsində böyük təntənə ilə qeyd olunur. Bu günlər ölkəmizin möminləri tərəfindən dini ayinlər yerinə yetirilir, dövlətimizin firavanlığı və tərəqqisi üçün dualar edilir, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur. İnsanlar Tanrıya yaxınlığın, mənəvi-əxlaqi dəyərlərə bağlılığın sevincini yaşayır, xeyirxah amallar uğrunda hər cür fədakarlığa hazır olduqlarını nümayiş etdirirlər. Qurban mərasimləri cəmiyyətimizdə bərabərlik və dözümlülük ovqatını daha da gücləndirir, milli-mənəvi həmrəyliyin, humanizm və qardaşlığın, xeyirxahlıq və mərhəmət duyğularının parlaq ifadəsinə və təcəssümünə çevrilir.

Əziz bacı və qardaşlarım!

Mübarək Qurban bayramı günlərində bir daha sizə və ölkəmizin hüdudlarından kənarda yaşayan bütün soydaşlarımıza səmimi təbriklərimi yetirir, uca Tanrıdan xalqımızın və dövlətimizin əmin-amanlığı və rifahı naminə etdiyiniz duaların qəbul olunmasını diləyirəm. Qoy bu müqəddəs bayram ailələrinizə səadət, süfrələrinizə xeyir-bərəkət gətirsin.

Bayramınız mübarək olsun!

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 22 sentyabr 2015-ci il.

## Qurban bayramı münasibətilə Silahlı Qüvvələrin şəxsi heyətinə

## Azərbaycan Respublikası Müdafiə nazirinin təbriki

Yoldaş zabitlər, gizirlər, miçmanlar, çavuşlar, əsgərlər və matroslar!

Sizi Qurban bayramı münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Xalqımızın milli-mənəvi dəyərlərini daima yüksək tutan ümummilli lider Heydər Əliyev milli və dini adət-ənənələrimizin qorunub saxlanılmasına layiqli töhfələr vermişdir. Bərabərlik və mənəvi təmizlik kimi yüksək əxlaqi hisslər aşılayan, nəsildən-nəslə ötürülərək bu günümüzə qədər yaşadılan Qurban bayramı yüksək səviyyədə qeyd olunur.

Möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında ölkəmiz sivil və demokratik inkişaf yolu ilə inamla irəliləyir. Bu gün ölkəmizdə iqtisadiyyatın dinamik inkişafı təmin edilmiş, əhalinin həyat səviyyəsi yaxşılaşmış, respublikamızın müdafiə qüdrəti artmış, müstəqilliyimiz daha da möhkəmlənmişdir.

İnanıram ki, bundan sonra da Azərbaycan Respublikası Konstitusiyasına, Hərbi Anda və Nizamnamələrə sadiq qalaraq respublikamızın ərazi bütövlüyünün bərpa edilməsi, torpaqlarımızın işğalçılardan azad olunması naminə xidməti borcunuzu şərəf və vicdanla yerinə yetirəcək, döyüş və mənəvi-psixoloji hazırlığın daha da yüksəldilməsində səylərinizi artıracaqsınız.

Hər birinizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və xidmətinizdə uğurlar arzulayıram.

**General-polkovnik**
**Zakir HƏSƏNOV**
**Azərbaycan Respublikasının**
**Müdafiə naziri**

## Evelin Farkas: Azərbaycan ilə əlaqələrimiz strateji tərəfdaşlıq səviyyəsində qalacaq

***ABŞ müdafiə katibinin Rusiya, Ukrayna, Avrasiya üzrə müavini, xanım Evelin Farkas Azərbaycana səfəri ilə bağlı sentyabrın 18-də mətbuat konfransı keçirib.***

AZƏRTAC xəbər verir ki, Evelin Farkas Bakıda bir sıra yüksək səviyyəli görüşlər keçirdiyini və müdafiə sahəsində ikitərəfli əlaqələr və təhlükəsizlik üzrə ortaq maraqlara dair müzakirələr apardığını deyib. Bildirib ki, 11 sentyabr hadisələrindən sonra Azərbaycan ABŞ-a dəstək verən ilk ölkələrdən olub və o vaxtdan bəri terrorizmlə mübarizədə öz dəstəyini davam etdirir. Azərbaycan hökuməti Əfqanıstanda sülhməramlı missiyada iştirak edir, həmçinin, NATO əməkdaşlarına logistik və digər məsələlərdə dəstək göstərir. Azərbaycan ABŞ-ın strateji müttəfiqi olaraq qalır. Biz bu ölkə ilə təhlükəsizlik sahəsində mövcud əməkdaşlığımızla fəxr edirik.

Pentaqon rəsmisi qeyd edib ki, Azərbaycan ilə güclü ikitərəfli əlaqələrimiz var. ABŞ Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə hörmətlə yanaşır. Azərbaycan ekstremist təşkilatlara maliyyə dəstəyinin qarşısını almaq üçün ABŞ-la yaxından əməkdaşlıq edib. Eyni zamanda, biz əməkdaşlığı gücləndirmək üçün danışıqlar aparırıq.

Evelin Farkas bölgədə həll olunmamış münaqişələrdən danışarkən bu problemin ABŞ Müdafiə Katibliyi və hökumətini narahat etdiyini vurğulayıb: "Birləşmiş Ştatlar vəziyyətə nəzarət edir və münaqişələri beynəlxalq qanunlara uyğun həll etmək üçün yollar axtarır. Azərbaycan, Gürcüstan, Ukrayna və Moldova ilə bağlı məsələlərlə gündəlik məşğul oluruq. Təəssüf ki, bütün bu münaqişələrin ortaq cəhəti var - güc tətbiqi və bu vaxtadək effektiv olmayan səylər və fəaliyyətlər. Bu istiqamətdə yürütdüyümüz siyasət bizdən strategiya və düşünülmüş yanaşma tələb edir. Suriyadakı münaqişə və onun nəticəsində qaçqınların Avropaya axını göstərir ki, insanlara yaxşı gələcək təmin etmək üçün daha çox səylər göstərilməlidir. Mənim valideynlərim də qaçqın olublar və Birləşmiş Ştatlarda məskunlaşıblar. Hər zaman bu məsələni diqqətdə saxlayırıq".

## Azərbaycan ilə Argentina arasında siyasi məsləhətləşmələr keçirilib

***Azərbaycan ilə Argentina arasında siyasi məsləhətləşmələr çərçivəsində xarici işlər nazirinin müavini Xələf Xələfov argentinalı həmkarı Eduardo Zuain ilə görüşüb.***

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan və Argentina arasındakı ikitərəfli siyasi münasibətlərin inkişaf səviyyəsini yüksək qiymətləndirən Xələf Xələfov ticarət-iqtisadi əməkdaşlığın ölkələrimizin potensialına cavab vermədiyini, informasiya texnologiyaları, kənd təsərrüfatı, energetika, turizm, sənaye kimi sahələrdə əməkdaşlığın dərinləşdirilməsi üçün geniş potensialın olduğunu diqqətə çatdırıb. Mütəmadi əsasda siyasi məsləhətləşmələrin aparılmasının sözügedən sahələrdə yeni imkanların müəyyən edilməsində əhəmiyyətini vurğulayan X.Xələfov ölkəmizin təşəbbüsü və iştirakı ilə regionumuzda reallaşdırılan layihələr və onların əhəmiyyəti haqqında məlumat verib. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən bəhs edən nazir müavini həll olunmamış münaqişələrin regionumuz üçün böyük təhdid olduğunu, eləcə də regionun inkişafına böyük maneələr yaratdığını söyləyib. Ermənistan-Azərbaycan münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmasının vacibliyini diqqətə çatdıran X.Xələfov 20 ildən çoxdur ki, münaqişənin həllinə məsul olan ATƏT-in Minsk Qrupu tərəfindən nəzərəçarpacaq irəliləyişin əldə olunmadığını bildirib. Qarşılıqlı etimadın qurulması üçün Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan torpaqlarından çıxarılmasının və məcburi köçkünlərin öz doğma yurdlarına qayıtmasının zəruriliyi vurğulanıb.

Azərbaycanda olmasından məmnunluğunu bildirən argentinalı nazir müavini birinci Avropa Oyunlarının möhtəşəm təşkilinə görə ölkəmizi təbrik edib. Azərbaycanın energetika sahəsində böyük təcrübəsinin olduğunu diqqətə çatdıran Eduardo Zuain ölkəmizin təcrübəsinin öyrənilməsi baxımından Argentinanın Azərbaycan ilə əməkdaşlıqda maraqlı olduğunu diqqətə çatdırıb. Həmçinin, nüvə enerjisinin dinc məqsədlər üçün istifadə edilməsi və kosmik texnologiya sahəsində münasibətlərin inkişafı üçün geniş potensialın olduğu bildirilib. Mədəniyyət günlərinin keçirilməsinin və hər iki ölkənin Diplomatik akademiyaları arasında təcrübə mübadiləsinin aparılmasının vacibliyi bildirilib. Argentinanın ATƏT-in Minsk Qrupu çərçivəsində aparılan danışıqlar prosesini dəstəklədiyini söyləyən E.Zuain beynəlxalq təşkilatlarda işləmə mexanizminin olmamasının münaqişələrin həllinin uzanmasında əsas amil olduğunu deyib və əlavə edib ki, bu səbəbdən BMT sistemində köklü islahatların aparılması zəruridir. Dövlətlərin ərazi bütövlüyü prinsipinin Argentinanın xarici siyasətində prioritetlərdən biri olduğunu bildirən argentinalı nazir müavini münaqişələrin həllində ölkəsinin bu prinsipdən çıxış etdiyini diqqətə çatdırıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər beynəlxalq və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## “Le Huffington Post” Dağlıq Qarabağ münaqişəsindən yazıb

***"Le Huffington Post" qəzetində Avropada Təhlükəsizlik və İnkişaf İnstitutunun (İPSE) tədqiqatçısı, MEVA qadın hüquqları qeyri-hökumət təşkilatının baş katibi Patrisiya Lalondun "İdarə etmək gələcəyi görməkdir: Cənubi Qafqazda növbəti müharibənin qarşısını necə almaq olar" başlıqlı məqaləsi dərc olunub.***

Hazırda medianın diqqətindən kənarda qalan Cənubi Qafqazdan yeni münaqişə mənbəyi ola biləcək döyüş sədaları eşidildiyini yazan müəllif bu regionun Rusiya ilə Qərb arasında növbəti çəkişmə məkanına çevrilməsi ehtimalına münasibət bildirir.

Məqalədə qeyd olunur ki, özəl kəşfiyyat və strateji təhlillər Amerika qrupu olan Stratforun ekspertlərinin təhlillərinə əsasən, Ukrayna böhranının ilk günlərindən Rusiya ilə Qərb arasında qarşıdurma təhlükəsi artır və bu təhlükə Cənubi Qafqaza doğru istiqamətlənir.

Müəllif yazır ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi 20 ildən artıqdır dondurulub, münaqişə nəticəsində qaçqın və məcburi köçkünlərin yaşadığı faciə Avropa mətbuatında çox az işıqlandırılıb.

Avropalı siyasi xadimlərin bu münaqişənin qarşısını almaq əvəzinə, sadəcə "reaksiyalarla" kifayətlənmələri bu münaqişənin yenidən intensivləşməsinə və gələcəkdə Cənubi Qafqazda stabilliyi pozmaq təhlükəsinə aparacağı qeyd olunur.

Müəllif Dağlıq Qarabağ münaqişəsinin mənbəyinə toxunaraq bu torpaqların Azərbaycanın qanuni ərazisi olduğunu, qanlı müharibə nəticəsində Ermənistan tərəfindən anneksiya olunduğunu və bir milyon azərbaycanlının doğma torpaqlarından qaçqın və didərgin düşdüyünü vurğulayır. Ermənistan silahlı qüvvələrinin törətdiyi Xocalı soyqırımından bəhs edərək, Dağlıq Qarabağın bu günədək BMT tərəfindən Azərbaycan torpaqları kimi tanındığını qeyd edir.

Azərbaycana səfərləri zamanı qaçqın düşərgələrindən, eləcə də QHT-lərlə görüşlərindən bəhs edən Patrisiya Lalond Dağlıq Qarabağ yaralarının nə dərəcədə ağrılı olduğunun şahidi olduğunu, qaçqınların və məcburi köçkünlərin doğma yurdlarına qayıtmaq arzusu ilə yaşadıqlarını bildirir. Eyni zamanda, müəllif dövlətin qaçqın və məcburi köçkünlərlə bağlı düzgün siyasətini diqqətə çatdırır. Münaqişənin əsas qurbanlarının ərlərini, qardaşlarını və oğullarını qanlı döyüşlərdə itirən qadınlar olduğu göstərilir. İtkin düşən insanların siyahısının tərtib olunduğu bildirilir. Hökumətin qaçqın və məcburi köçkünlərin cəmiyyətə inteqrasiya siyasətinin müvəffəqiyyətli olduğu diqqətə çatdırılır.

Qaçqınlarla bağlı siyasətinə və onlara göstərilən qayğıya görə Azərbaycanın nümunəvi ölkə olduğu vurğulanır.

Sonda müəllif Avropada sığınacaq axtaran qaçqın dalğasının elektroşokunun avropalı siyasətçilərə münaqişələrə və qaçqın faciələrinə son qoymaq üçün daha yaxşı diplomatiya aparmaq lazım olduğunu dərk etməyə imkan verəcəyinə ümid etdiyini bildirir.

**AZƏRTAC**

## Özbəkistanın "Uchildiz.uz" portalı Dağlıq Qarabağ münaqişəsindən yazır

Özbəkistanın "Uchildiz.uz" xəbər portalı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında özbək və rus dillərində geniş məqalə yayıb.

Məqalədə Dağlıq Qarabağ münaqişəsinin yaranma səbəbləri, cəbhə xəttindəki son vəziyyət, Ermənistan silahlı qüvvələrinin müntəzəm olaraq Azərbaycanın mövqelərini atəşə tutması haqqında məlumat verilir.

Məqalədə, həmçinin Azərbaycan Prezidenti İlham Əliyevin "Rossiya-24" televiziya kanalına müsahibəsində Dağlıq Qarabağ münaqişəsi, Ermənistanın problemin həlli ilə bağlı tutduğu qeyri-konstruktiv mövqe barədə fikirləri əksini tapır.

**AZƏRTAC**

# Müdafiə naziri İsrailin Azərbaycandakı səfiri ilə görüşüb



Sentyabrın 22-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov İsrail dövlətinin ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Dan Stav ilə görüşüb.

Səfiri ölkəmizdə diplomatik fəaliyyətə başlaması münasibətilə təbrik edən Müdafiə naziri ona Azərbaycan ilə İsrail arasında əməkdaşlığın genişləndirilməsi istiqamətində uğurlar arzulayıb.

Görüşdə ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə naziri Belarusun Azərbaycandakı səfiri ilə görüşüb

Sentyabrın 22-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Belarus Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Gennadi Axramoviç ilə görüşüb.

Səfirə diplomatik fəaliyyətində uğurlar arzulayan Müdafiə naziri Azərbaycan ilə Belarus arasında hərbi sahədə mövcud əməkdaşlığın və qarşılıqlı inamın güclənməsinə xidmət edən fəaliyyətləri qeyd edərək dövlətlərimizin regional təhlükəsizliyə verdiyi töhfələri xüsusi vurğulayıb.

Bölgədəki hərbi-siyasi vəziyyətə toxunan nazir qeyd edib ki, uzun illər davam edən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi regional sabitliyə əsas təhlükədir.

Səmimi qəbul üçün minnətdarlığını bildirən səfir diplomatik fəaliyyəti müddətində ikitərəfli əlaqələrin, xüsusilə hərbi sahədə əməkdaşlığın inkişafı üçün səylərini əsirgəməyəcəyini deyib. Diplomat Azərbaycan ilə Belarus arasında müxtəlif istiqamətlərdə əməkdaşlığın inkişafı üçün geniş perspektivlərin olduğunu vurğulayıb.



Bundan əlavə, görüşdə Azərbaycan ilə Belarus arasında hərbi, hərbi texniki, hərbi təhsil sahələrində əməkdaşlığın genişləndirilməsi, o cümlədən yeni hərbi texnologiyaların tətbiqi, mütəxəssislərin hazırlanması, Silahlı Qüvvələrin ekspertləri səviyyəsində qarşılıqlı təcrübə mübadiləsi, işçi görüşlərinin təşkili və digər məsələlər müzakirə olunub.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Təmas xəttində monitorinq keçirilib

***ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, sentyabrın 22-də Tovuz rayonunun Əlibəyli kəndi yaxınlığındakı qoşunların təmas xəttində monitorinq keçirilib.***

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına görə, monitorinqi Azərbaycan tərəfdən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Xristo Xristov və Saymon Tiller keçiriblər.

Təmas xəttinin qarşı tərəfində isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Yevgeniy Şarov və Piter Svedberq keçiriblər.

# Hərbi pilotların hazırlığı mərkəzinin açılışı olub

***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Hərbi Hava Qüvvələrinin hazırlıq səviyyəsinin yüksəldilməsinə dair tapşırığına əsasən, pilotlarının hazırlığı mərkəzinin açılışı olub.***

Yeni mərkəzin açılışında iştirak edən Müdafiə naziri general-polkovnik Zakir Həsənov əvvəlcə Mi-35 zərbə helikopteri ekipajlarının hazırlığı üçün nəzərdə tutulan kompleks trenajor mərkəzinə gələrək idarəetmə, paraşüt-desant, axtarış-xilasetmə, helikopter trenajorları, hündürlük ləvazimatları, laboratoriya və digər otaqlardakı şəraitlə tanış olub.

Bildirilib ki, real şəraitə tam uyğunlaşdırılan müasir tipli helikopter trenajorları otağında quraşdırılan avadanlıq təsdiqlənən hazırlıq proqramına uyğun olaraq ekipajların nəzəri təlim hazırlığını artırmaq, bacarıqlarını lazımi döyüş səviyyəsində saxlamaq, o cümlədən digər hava vasitələrini idarə edən uçuş heyətinin yenidən öyrədilməsi məqsədini daşıyır.



Pilotların hazırlığında istifadə olunan trenajorlar uçuşu, döyüş atışlarını və digər fəaliyyətləri virtual olaraq həyata keçirmək imkanı verir.

Həqiqi helikopterin kabinəsinin interyerini əks etdirən, eyni zamanda cihaz, ləvazimatlar, idarəetmə qurğuları quraşdırılan və operator tərəfindən idarə olunan trenajorda uçuş heyəti verilən proqrama uyğun marşrut üzrə, havanın və sutkanın rejimi, manevr imkanları, texniki vəziyyət və digər amillər nəzərə alınmaqla hazırlıq keçir.



Mərkəzdə ixtisaslı mütəxəssislər tərəfindən hazırlanan gənc pilotlarla görüşən Müdafiə naziri xüsusi qeyd edib ki, silahlanmada kifayət qədər döyüş aviasiyasına malik olan Silahlı Qüvvələrimiz Ali Baş Komandan tərəfindən verilən istənilən döyüş tapşırığını yerinə yetirməyə hazırdır.

General-polkovnik Zakir Həsənov döyüş helikopterlərinin dayanması, onlara texniki xidmətin göstərilməsi və təmiri məqsədilə yeni tikilən, müasir avadanlıqlarla təchiz olunan anqarlara da baxıb. Nazir bu işin davam etdirilməsi ilə bağlı müvafiq tapşırıqlar verib.

Sonra nazirliyin rəhbər heyəti Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin hərbi hissələrdə şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına dair tapşırığına əsasən, uçuş və texniki heyət üçün yeni inşa edilən müasir yeməkxana, hamam-camaşırxana-qazanxana kompleksinə gələrək burada yaradılan şəraitlə tanış olub.

Müdafiə naziri zəruri infrastrukturla yanaşı, ailəli hərbi qulluqçular üçün nəzərdə tutulan və inşası davam etdirilən hər biri 50 mənzilli müasir tipli üç binada aparılan tikinti işlərinin gedişini yoxlayıb. General-polkovnik Zakir Həsənov tikintinin qısa müddətdə başa çatdırılması ilə bağlı müvafiq tapşırıqlar verib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**







# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq tədbirdə iştirak edəcəklər

Sentyabrın 21-dən oktyabrın 2-dək Tbilisi şəhərində (Gürcüstan) geniş təhlükəsizlik kontekstində müdafiənin idarə olunması kursu, Qaylenkirxen şəhərində (Almaniya) "Avropada adi silahlı qüvvələr haqqında müqavilə" üzrə kurs, sentyabrın 22-dən 24-dək Oslo şəhərində (Norveç) şəxsi heyətin idarə olunması kursu keçiriləcək.

Tədbirlərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri də iştirak edəcəklər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***22 sentyabr 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 75 dəfə pozub.

Ermənistan silahlı bölmələri İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə, Noyemberyan rayonunun Voskevan kəndində yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə və Quşçu Ayrım kəndində, Berd rayonunun Mosesqex kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Əlibəyli kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə və Cil kəndində yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimizi atəşə tutub.

Goranboy rayonunun Talış, Tapqaraqoyunlu, Gülüstan, Tərtər rayonunun Çiləbürt, Göyarx, Yarımca, Çaylı, Qızıloba, Ağdam rayonunun Novruzlu, Sarıcalı, Cəvahirli, Yusifcanlı, Şıxlar, Kəngərli, Baş Qərvənd, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Qorqan, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin, Göygöl, Goranboy, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq, düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 100 dəfə atəş zərbəsi endirib.

# Mariya Zaxarova: Rusiya Dağlıq Qarabağ münaqişəsinin sonunu mümkün qədər tez yaxınlaşdırmaq üçün hər şey edəcək

Rusiya Xarici İşlər Nazirliyinin nümayəndəsi Mariya Zaxarova Moskvada keçirdiyi həftəlik brifinqdə Avropa Parlamentinin Azərbaycanla bağlı qəbul etdiyi qətnamə haqqında suala cavab verərək bildirib ki, konkret dövlətə qarşı hər hansı konkret iddialar siyasiləşdirilmiş metodlarla deyil, qarşılıqlı hörmət və dialoq əsasında həll edilməlidir.

Rusiyanın Azərbaycan ilə münasibətlərini dinamik inkişaf edən münasibətlər kimi dəyərləndirdiyini vurğulayan M.Zaxarova deyib: "Azərbaycan təkcə siyasi sahədə deyil, həm də iqtisadi və digər sahələrdə bizim tərəfdaşımızdır. Yüksək səviyyədə, xarici işlər nazirləri səviyyəsində əlaqələrdən tutmuş humanitar əlaqələrədək bütün səviyyələrdə dialoqumuz çox fəal inkişaf edir. Dağlıq Qarabağ münaqişəsinə gəldikdə isə Rusiya nizamasalma prosesinə yaxından qoşulub və biz bu sülh prosesinin məsuliyyətli iştirakçılarıyıq".

Rusiya XİN-in nümayəndəsi vurğulayıb ki, rəsmi Moskva Dağlıq Qarabağ münaqişəsinin sonunu mümkün qədər tez yaxınlaşdırmaq üçün lazım olan hər şeyi edir və bundan sonra da edəcək.

**AZƏRTAC**

*Əsgərin tribunası*

# Torpaqlarımızı işğaldan azad edəcəyik!



***Ordu sıralarına çağırılanda sevinc içindəydim. Axı neçə vaxtdan bəri bu günü gözləyir, əynimə hərbi forma geyinib Vətənə əsgər olmaq istəyirdim. Artıq arzuma çatmışdım.***

Hərbi hissəyə daxil olanda günü-gündən güclənən ordumuz haqqında təəssüratım daha da genişləndi. Ürəyimi, qəlbimi xoş hisslər bürüdü. Zabitlər və çavuşlar ordu sıralarında ilk addımlarını atan gənc əsgərləri gülərüzlə qarşıladılar. Xidmət edəcəyimiz hərbi hissənin keçdiyi döyüş yolundan ətraflı danışdılar. Şərəfli döyüş yolu keçmiş bir hərbi hissədə xidmət edəcəyimi eşidəndə sevincim daha da artdı.

Ertəsi gün bizə hərbi forma verdilər. Hərbi formanı əynimə geyinəndə qəlbim cuşa gəldi, ürəyim sevinclə doldu.

Sonra dərs və təlimlər başlandı. Sıra hazırlığı məşğələsi mənim üçün maraqlı oldu. Qısa müddətdə sıra vərdişlərinə yiyələndim, inamla addımlamağı öyrəndim.

Hərbi andı böyük təntənə ilə qəbul etdik. Andiçmə mərasiminə həm valideynlərim, həm də yaxın dostlarım gəlmişdi. Hərbi andı qəbul etdim. Əsgərlərin gur səsinə sanki göylər də sevinirdi, Günəşin də üzü gülürdü. Mərasim başa çatandan sonra doğmalarım məni təbrik etdilər, xidmətimdə uğurlar arzuladılar. Həmin gün yaddaşımda əbədi qalacaq.

Hərbi texnikanın və silahların sirlərini dərindən öyrənmək üçün məşğələlərdə fəal iştirak edirəm. Daha çox bilik öyrənməyə çalışıram. Çünki nə qədər bilikli və bacarıqlı olsam, həm təlimlərdə, həm də döyüşlərdə uğur qazanacağam. Səylərim və çalışqanlığım yüksək nəticə verir. Bacarıqlı komandirlərimizin sayəsində qısa müddətdə hərbi biliklərə və döyüş vərdişlərinə yiyələnirik. İndi torpaqlarımızı erməni işğalçılarından azad etməyə tam hazırıq. Ürəyimizdə qələbəyə böyük əminlik hissi var. Əminik ki, belə yüksək hazırlıqla düşməni məğlubiyyətə uğradıb, torpaqlarımızı azad edəcəyik.

**Əsgər Şükür ŞÜKÜROV, "N" hərbi hissəsi**

*Milli qəhrəmanlarımız*

# Qələbə üçün döyüşürdü...

***Bu günlərdə Bakının Yasamal rayonundakı Heydər Əliyev Mərkəzində Azərbaycan Hərb Tarixi Muzeyi, Yasamal rayon İcra Hakimiyyəti və birinci Səbail tank taborunun birgə təşkilatçılığı ilə Milli Qəhrəman Əsəd Əhmədovun anadan olmasının 45 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.***



Qəhrəmanın yubiley mərasimində Müdafiə Nazirliyinin, xüsusi təyinatlı hərbi məktəblərin, Yasamal və Şuşa rayon icra hakimiyyətlərinin nümayəndələri, birinci Səbail tank taborunun veteranları, Dağ Yəhudiləri Dini İcmasının rəhbərliyi, Milli Qəhrəmanın ailə üzvləri iştirak ediblər.

Azərbaycan Respublikası Prezidentinin 5 fevral 1993-cü il tarixli, 457 saylı Fərmanı ilə Əsəd Cəlal oğlu Əhmədov ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb. Şuşadakı döyüşlərdə ön sıralarda vuruşan igid tankçı 70-ə qədər erməni quldurunu məhv etmişdi. Zarıslı kəndində mühasirəyə düşmüş yoldaşlarının köməyinə birinci yetişən Əsəd döyüşçülərimizlə birlikdə iki tankımızı mühasirədən azad etmişdi. Güllücə kəndində hücumun qarşısını almaqla igidlik göstərib ermənilərin bir PDM-ni və xeyli canlı qüvvəsini məhv etmiş, Laçın ətrafında əsir düşmüş 28 nəfər döyüşçümüzün azad edilməsində əsl qəhrəmanlıq göstərmişdi. Öz keçmişinə, bu gününə və sin. Şəhidlərimizi isə həm yer, həm də göy bəyənir. Onlar əməlləri və ölümləri ilə tarix yazıblar. Azərbaycandakı tolerantlıq bir çox dövlətlərə nümunədir. Bizim belə möhtəşəm görüşlərdə birlikdə olmağımız dostluğumuzun, qardaşlığımızın qədimliyini göstərir. Ana, sizin oğlunuz bizim də qardaşımız idi, onun ömrü bizlərə örnəkdir".

Dədə Qorqud Milli Fondunun prezidenti, "Azərbaycan Dünyası" beynəlxalq jurnalının baş redaktoru Eldar İsmayılov Milli Qəhrəman haqqında xoş



Tədbir iştirakçıları əvvəlcə mərkəzdə ulu öndər Heydər Əliyevin büstünün önünə əklil qoyub, xatirəsini ehtiramla yad ediblər. Sonra ənənəvi olaraq ümummilli liderimizin və ərazi bütövlüyümüz uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildikdən sonra Hərb Tarixi Muzeyinin rəisi, ehtiyatda olan polkovnik Əzizağa Qənizadə tədbiri giriş sözü ilə açaraq "Əsəd Əhmədov - Vətənimizin bütövlüyü uğrunda mübarizədə şəhidlik zirvəsinə yüksəlmiş Azərbaycan qəhrəmanı" mövzusunda məruzə ilə çıxış edib. O çıxışında bildirib ki, Əsəd Əhmədov Azərbaycan xalqının xoşbəxt gələcəyi uğrunda mübarizə aparmağa hər zaman hazır olan bir gənc idi. Hərbi komissarlıqdan çağırış vərəqi gələndə Əsəd artıq iki ay idi ki, ordu sıralarında xidmət edirdi.



gələcəyinə hörmət edən xalqımız hərb tarixində xidməti olan peşəkar hərbçilərimizin qədrini yaxşı bilir, dəyərləndirir, xatirəsini yaşadır və yad edir.

Yasamal rayon İcra Hakimiyyətinin şöbə müdiri Vaqif Məmmədov Milli Qəhrəmanın həyat yoluna nəzər salaraq, xalqımızın Əsəd Əhmədov kimi oğulları ilə fəxr etdiyini söyləyib. "Yasamal rayonunda böyük bir küçə onun adını daşıyır. Rayonumuzda 267 şəhid ailəsi, mindən çox qaçqın ailəsi məskunlaşıb. Dövlətimizin rəhbərliyi onlara böyük qayğı göstərir".

Dağ Yəhudiləri Dini İcmasının sədri Melix Yevdayev qeyd edib ki, həyatda iki şeyin üzünə düz baxmaq olmur: Günəşin və ölümün. "Yalnız qəhrəmanlar ölümün üzünə düz baxırlar. Qəhrəmanlar ölmürlər, onlar əbədi olaraq bizlərin qəlbində yaşayırlar. Belə bir deyim var: Qalarsa, göy bəyənsin, ölərsə, yer bəyən-

sözlər deyərək, onun anası Simuzər xanıma müraciət etdi: "Vətənpərvərlik ailədən başlanır. Məhz bunun üçün də qəhrəmanın anasının rolu danılmazdır". Eldar müəllim Simuzər xanıma "Dədə Qorqud" Milli Fondu tərəfindən təsis edilmiş "Mehriban Ana" mükafatını təqdim etdi.

İgid döyüşçünün ailə üzvləri adından çıxış edən bacısı Afidə Əhmədova dövlətimizin başçısı İlham Əliyevin şəhid ailələrinə göstərdiyi qayğıdan danışıb. 1988-ci ildə erməni quldurları tərəfindən doğma yurd-yuvalarından necə didərgin düşmələrindən ürək yanğısı ilə söz açan Afidə xanım Əsədi igidlikdə Böyük Vətən müharibəsində həlak olmuş, adları Azərbaycan Sovet Ensiklopediyasına düşmüş Rəsul, Veysəl əmilərinə bənzətdiyini tədbir iştirakçılarının diqqətinə çatdırıb və tədbirin keçirilməsində əməyi olan hər kəsə ailələri adından minnətdarlığını bildirib.

Milli Qəhrəmanın komandiri olmuş Hacı Əzimov və döyüşçü yoldaşı Arif Nağıyev onun döyüş yolundan qürurla danışaraq xatirələrini bölüşüblər.

Hərb Tarixi Muzeyinin rəisi, ehtiyatda olan polkovnik Əzizağa Qənizadə keçirilən tədbirlərdə fəal iştirak etdiyinə görə Yasamal və Şuşa rayon İcra başçılarını, Dağ Yəhudiləri Dini İcmasının sədri Melix Yevdayevi və Məmmədağa Hacı oğlu Əzimlini fəxri fərmanla mükafatlandırıb. Yasamal rayon 308 saylı məktəbin şagirdlərinin maraqlı bədii kompozisiyası ilə hərbi vətənpərvərlik ruhunda hazırlanmış "Qələbə üçün döyüşdük" klipi tədbir iştirakçılarında xoş ovqat yaradıb.

Tədbir Milli Qəhrəmanın Şəhidlər xiyabanındakı məzarının ziyarəti ilə başa çatıb.

**"Azərbaycan Ordusu"**

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən dərs

**Mövzu:** XVI-XIX əsrin əvvəllərində Azərbaycanda baş vermiş hadisələr. Azərbaycan Səfəvilər dövləti.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə bu dərsə hazırlaşarkən Azərbaycan tarixinə dair müvafiq ədəbiyyatdan istifadə etmək və mövzunu bölmənin gündəlik həyatı ilə bağlamaq tövsiyə olunur.*

**Suallar:**

**1. XVI əsrin başlanğıcında Azərbaycan ərazisinin tarixi coğrafiyası; ölkədaxili siyasi-iqtisadi vəziyyət; dövlət quruluşu və hərbi qüvvələr.**

**2. Səfəvilər sülaləsi, Azərbaycan Səfəvilər dövlətinin yaranması.**

**3. Səfəvilər dövləti və Osmanlı Türkiyəsi arasında münasibətlər.**

**4. XVIII əsrdə Azərbaycanda daxili siyasi vəziyyət, rus-İran müharibələri.**

**5. XIX əsrin əvvəllərində Azərbaycanın Rusiya və İran arasında bölüşdürülməsi.**

### *XVI əsrin başlanğıcında Azərbaycan ərazisinin tarixi coğrafiyası; ölkədaxili siyasi-iqtisadi vəziyyət; dövlət quruluşu və hərbi qüvvələr*

XV əsrin sonları - XVI əsrin başlanğıcına doğru Azərbaycanda bir sıra müstəqil feodal dövlətləri yaranmışdı ki, onlardan ən mühümü Şirvanşahlar, Qaraqoyunlu və Ağqoyunlu dövlətləri idi. Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin ərazisi Cənubi Azərbaycanı və Qarabağı, şimalda Kür çayına qədər Gəncə və Şəmkiri əhatə edirdi. Hər üç dövlətin quruluşu eyni olub, bir-birindən əsaslı şəkildə fərqlənmirdi. Fərq yalnız onda idi ki, Qaraqoyunlu və Ağqoyunlu dövlətləri aparatında Azərbaycan tayfalarının hərbi-feodal əyanları - baharlı və bayandırlı tayfaları əsas rol oynayırdılar. Hər iki sülalənin dövlət başçıları "padşah" titulu daşıyırdılar. Şirvanda isə dövlət hakimiyyəti feodal əyanlarına mənsub idi. Şirvan dövlətinin başçıları özlərini "şah" adlandırırdılar.

Hakim sülalənin üzvlərindən və ya məşhur əmirlərindən təyin olunan ordunun baş komandanı Əmir - ül Üməra (əmirlər əmiri) titulunu daşıyır, padşahdan sonra birinci şəxs sayılırdı. Hərbi qüvvələr padşahın xüsusi və vilayət canişini qoşunlarından ibarət idi. Hər ikisi Azərbaycanın feodal qoşun hissəsini təşkil edirdi. Komanda heyəti feodal əyanlarından seçilirdi. Orduda ali rütbəli şəxs əmir adlanırdı. Vilayətlərdə əmirlərin sırasından böyük əmirlər ayrılırdı. Bunların da ordunun rəhbər heyətində xüsusi yeri vardı. Kiçik rəislər qibtaul adlanırdılar. Ordunun sıravi tərkibi zireh geymiş süvarilərdən - puşandarlar, tirkətbən - oxatanlar, xidmətçilərdən ibarət idi. Komanda heyəti dəmir geyimlə yanaşı zəif ipək paltar da geyirdi. Ağqoyunlu əsgərləri başlarına şiş papaq qoyardılar. Qoşunun tərkibi müxtəlif idi: burada çəkməçi, tacir, tibb işçisi və s. peşə sahibləri vardı.

### *Səfəvilər sülaləsi, Azərbaycan Səfəvilər dövlətinin yaranması*

Feodal pərakəndəliyi ölkənin ayrı-ayrı hissələri arasında təsərrüfat əlaqələrinin möhkəmlənməsinə mane olur və məhsuldar qüvvələrin inkişafını ləngidirdi. Ağqoyunlu şahzadələri arasında ara müharibələri, feodal hakimlərin özbaşınalığının artması kənd təsərrüfatı və sənətkarlığın tənəzzülünə səbəb oldu, şəhər və kənd əməkçilərinin vəziyyətini ağırlaşdırdı. Feodal pərakəndəliyi həmçinin yadellilərə qarşı mübarizədə xalqın birliyinin yaranmasına mane olurdu. Odur ki, Azərbaycanı siyasi cəhətdən birləşdirmək zərurəti artıq meydana çıxmışdı. Bu birləşmə Azərbaycan əhalisinin geniş kütlələrinin mənafeyinə uyğun gəlirdi. Yalnız belə bir dövlət yaratmaqla feodal pərakəndəliyini aradan qaldırıb Azərbaycanın müstəqilliyini qorumaq olardı. Bu vəzifəni isə XIII yüzilliyin sonunda Azərbaycanın Ərdəbil şəhərində yaşamış Səfəvilər sülaləsinin yaratdığı Səfəvilər hakimiyyəti həyata keçirməyə başladı. Rəvayətə görə, Səfəvilərin banisi Şeyx Səfiəddin yeddinci şiə imamı olan Musa Kazımın 21-ci nəslindən törəmədir, bu da bilavasitə Həzrət Əlinin və peyğəmbərin qızı Fatimənin 26-cı nəslidir. Səfiəddinin ata-babası Ərdəbildə və onun ətrafında yaşayırdılar. Bütün Ərdəbil əhli şeyxin müridləri hesab olunur və onun dediklərinə əməl edirdi. Getdikcə Ərdəbil təriqətini təkcə Azərbaycanda deyil, Rumda, Farsda, İraqda, Gilanda, Talışda yayan səfəvi şeyxlərinin çoxlu müridləri və ardıcılları toplandı. Beləliklə, Ərdəbil feodal hakimiyyətinin əhəmiyyəti xeyli dərəcədə artdı. Səfəvilər dünyəvi və ruhani işləri öz əllərində birləşdirdilər. Onlar xalqın ədalətli hökmdar haqqında baş tutmayan arzusunu təcəssüm etdirən şiəliyi Azərbaycanda, İranda, Kiçik Asiya və Şərqin başqa yerlərində sürətlə yayır və ideoloji təbliğat vasitəsinə çevirirdilər. Səfəvi şeyxləri təbliğ edirdilər ki, şəriətin nəzərdə tutmadığı vergi və mükəlləfiyyətlərin ləğv olunması üçün hakimiyyət başında dayanan sünnü hökmdarların ağalığına son qoymaq lazımdır. Şiəlik təriqətindən öz məqsədləri üçün istifadə etməyə çalışan Səfəvilər müxtəlif vədlərlə xalq kütlələrini öz tərəflərinə çəkir və hakimiyyət uğrunda mübarizəni genişləndirirdilər. Bu mübarizə Şeyx Səfiəddindən sonra sülalənin görkəmli başçıları, o cümlədən Şah İsmayılın (1487-1524) dövründə kəskin xarakter aldı. Beləliklə, Səfəvilərin Ərdəbil hakimliyindən sonrakı dövrünü onların Azərbaycanın siyasi həyatında mühüm rol oynaması, bütün Azərbaycanda hakimiyyətin yaranması və möhkəmlənməsi dövrü kimi qiymətləndirmək olardı. Məhz Səfəvilərin Ərdəbil hakimiyyəti mərkəzləşmiş Azərbaycan dövlətinin yaradılması yolunda başlanğıc rolunu oynamışdır. XV əsrin ortalarından etibarən Səfəvilər daha fəal siyasət yeritməyə başladılar. Onlar uğurlu hərbi yürüşlər keçirərək böyük qənimətlər əldə edir və öz mövqelərini möhkəmləndirirdilər. Əsrin II yarısında artıq Muğanın bir hissəsi, Qarabağ və Azərbaycanın Talış dağlarına qədər olan şərq torpaqları onların təsiri altına düşmüşdü. Həm də Səfəvilərin ayrı-ayrı nümayəndələri tarix səhnəsində daha ruhani başçısı kimi yox, siyasi xadim kimi çıxış edirdilər.

Səfəvilərin hakimiyyəti Şah İsmayılın dövründə daha da gücləndi. Onlar kütləleri öz tərəflərinə cəlb etmək üçün ədalətli qərarlar vəd edirdilər. Təkcə Ərzincan səfəri ərzində İsmayılın bayrağı altına müxtəlif tayfalardan 7 min qazi toplaşdı. Bu müşavirədə səfəvilər birinci zərbəni Şirvanşahlara vurmaq qərarına gəldilər. Çünki əks halda, yəni Təbrizə hücum etməklə dərhal üç düşmənlə - Ağqoyunlu Əlvənd Mirzə və Muradla, habelə onları müdafiə edən Şirvanşah Fərrux Yasarla üzləşməli olardılar. Beləliklə, 1500-cü ilin payızında qızılbaşlar (səfəvilər) Kürü keçib Şirvan ərazisinə daxil oldular. Şirvanın paytaxtı tutuldu, Fərrux Yasarın başı kəsildi, qızılbaşlar Şirvanşahların böyük sərvətini ələ keçirdilər. Sonra İsmayıl Bakı üzərinə yeriyərək onu ələ keçirdi. Ağqoyunlu Əlvənd Mirzə bundan bərk narahat oldu. O, İsmayılın cənuba doğru hərəkətinə nə qədər mane olmağa çalışsa da, buna müyəssər olmadı. 1501-ci ilin ortalarında Naxçıvan ərazisində onlar arasında həlledici döyüş baş verdi. Bu döyüşdə İsmayıl əsl sərkərdəlik məharəti göstərərək qələbə qazandı. Həmin qələbədən sonra, 1501-ci ilin payızında İsmayıl təntənə ilə Təbrizə daxil oldu və özünü şah elan etdi. Beləliklə, paytaxt Təbriz olmaqla Səfəvilər dövlətinin əsası qoyuldu. Azərbaycan Səfəvilər dövlətinin özəyi idi. Bu dövlətdə əhalinin etnik və mədəni birliyə malik çoxluğunu Azərbaycan türkləri təşkil edirdi. Azərbaycan etnik ünsürü dövlətin siyasi həyatında rəhbər rol oynayırdı. XVI əsrin ortalarına yaxın dövlətin 74 əmirindən 69-u Azərbaycan türkü idi. Ordu da əsasən Azərbaycan tayfalarından təşkil olunurdu. Şahın sarayında, qoşun içərisində və qismən diplomatik yazışmalarda Azərbaycan türkcəsindən istifadə olunurdu.

Səfəvilər dövlətinin yaranması Azərbaycan tarixində mühüm hadisə idi. Bu ölkənin təsərrüfat həyatı üçün şərait yaratdı, yadellilərə qarşı xalqın mübarizəsini asanlaşdırdı.

Şah İsmayılın qələbələri çoxlarını narahat edirdi. Bəzi feodallar, hakimlər siyasi həyatda müstəqillik və hakimiyyət iddiası ilə çıxış edirdilər. Səfəvilər dövləti üçün təhlükəli düşmən - Murad padşah Həmədanda qoşun qalıqlarını toplayaraq qızılbaşlara zərbə endirməyə çalışırdı. Belə olduqda İsmayıl 12 min nəfərlik qoşunla Təbrizdən çıxaraq, Qızılüzən çayını keçib Həmədan yaxınlığına gəldi. 1503-cü il iyunun 21-də baş verən döyüş nəticəsində Muradın qoşunları məğlubiyyətə uğradı. Murad Şiraza qaçdı. İsmayıl onu təqib edərək İranın içərilərinə doğru irəlilədi və müqavimətsiz Şirazı ələ keçirdi. Beləliklə, Ağqoyunlu dövlətinin varlığına son qoyuldu. İsmayıl Əlvənd üzərində qələbə ilə İran və Əcəm İraqının xeyli hissəsinə yiyələndi.

### *Səfəvilər dövləti və Osmanlı Türkiyəsi arasında münasibətlər*

Səfəvilər dövlətinin meydana çıxması və onun qüdrətinin artması Osmanlı Türkiyəsini narahat edirdi. Osmanlı İmperiyası Səfəvilərin düşməni olan Ağqoyunlu padşahına kömək edir, yeni dövlətin möhkəmlənməsinə mane olmağa çalışırdı. Lakin Türkiyə sultanı II Bəyazid Şah İsmayıla qarşı müharibəyə başlamağa cəsarət etməyərək, 1504-cü ildə bu dövləti tanımağa məcbur oldu. Bununla belə, Osmanlı feodalları Azərbaycanı və qonşu ölkələri ələ keçirmək iddialarından əl çəkmirdilər. Səfəvilər isə Gürcüstanı və Türkiyənin bir sıra şərq torpaqlarını özlərinə tabe etmək niyyətində idilər.

Şah İsmayılın ölümündən sonra onun oğlu I Təhmasib taxta çıxdı (1524-1576).

Süleyman Qanuninin (1520-1566) vaxtında Osmanlı ali təbəqəsi öz nüfuz dairələrini şərq istiqamətində genişləndirmək cəhdlərindən əl çəkmirdi. Odur ki, qarşılıqlı hücumlar ara vermir, illərlə davam edirdi. Nəhayət, 1555-ci il mayın 29-da Amasiyada Səfəvi-Osmanlı müharibəsinin birinci mərhələsini başa çatdıran sülh müqaviləsi imzalandı. Bu sülhə görə, Qərbi Gürcüstan - İmeretiya, Menqreliya və Quriya Türkiyənin, Gürcüstanın şərq vilayətləri - Mesxi, Kartlı, Kaxetiya və indiki Ermənistan Səfəvilərin ixtiyarına keçdi. Lakin bu sülh uzun sürmədi. XVI əsrin 70-ci illərindən etibarən Osmanlı işğalının yeni dövrü başlandı. Bu vaxt Səfəvilər dövlətinin başında Məhəmməd Xudabəndə (1578-1587), Osmanlı dövlətinin başında isə Sultan II Murad (1574-1595) dururdu.

Beləliklə, 1586-1589-cu illərdə bütün Azərbaycan Sultan II Muradın ordusu tərəfindən zəbt olundu. Səfəvilər ərazilərinin qalan hissəsini itirməmək üçün sülhə razılaşdılar. 1590-cı ildə imzalanan İstanbul sülh müqaviləsinə görə, Azərbaycandan əlavə indiki Ermənistan, Gürcüstan, habelə İranın qərb vilayətləri Türkiyəyə verildi.

Səfəvilər dövləti tezliklə süquta uğradı.

Osmanlı ilə müharibənin davam etdiyi illərdə İranda hakimiyyət dəyişikliyi oldu. I Şah Abbas taxt-taca sahib oldu (1587-1629). O da Azərbaycana qarşı planlarını gizlətmirdi. 1607-ci ildən etibarən hərbi əməliyyatlara başlayan I Şah Abbas Şirvana hücum etdi. O, zəbt etdiyi ərazilərdə güclü farslaşdırma siyasəti yeridir, amansız bir idarə üsulu yaradırdı.

### *XVIII əsrdə Azərbaycanda daxili siyasi vəziyyət, rus-İran müharibələri*

Səfəvilər dövlətinin süqutundan sonra Azərbaycan torpaqlarının parçalanması başlayır. Ayrı-ayrı ərazilərdə xanlıqlar yaranır. Belə bir dövrdə şimaldan yeni bir təhlükə yaranmağa başlayır. Rusiya öz ərazilərini genişləndirməyi, imperiya yaratmaq niyyətini büruzə verir. I Pyotrun hakimiyyətə gəlişi ilə Rusiyanın həyatında yeni dövr başlayır. Qafqaza, xüsusən də Azərbaycana maraq çoxalır. 1722-ci ilin yaz-payız aylarında I Pyotr Xəzəryanı vilayətlərə yürüş edir. Qoşunlar Dərbəndə daxil olur, 1723-cü ilin iyulunda isə Bakı qalası mühasirəyə alınaraq güclü həmlələrdən sonra təslim olur.

Azərbaycan xanlıqlarının birləşdirilməsi, torpaqların yadellilərdən müdafiəsi işində qubalı Fətəli xanın (1758-1789) o dövrdə göstərdiyi fəaliyyət diqqəti cəlb edir. Fətəli xan bu məqsədə çatmaq üçün hətta başqa bir dövlətin köməyindən istifadə etməyi və bəlkə onunla birləşməyi də istisna etmirdi. Bu isə bəzi xanlıqların xoşuna gəlmirdi. Fətəli xan isə belə bir hadisəyə hərbi-siyasi cəhətdən yanaşır və onu müsbət qiymətləndirirdi. O, öz məqsədinə çatmaq üçün birləşmiş Azərbaycan - Dağıstan qüvvələri ilə Gilana hücum edir, Ağa Məhəmməd şah Qacarın qoşunlarını məğlub edərək Rəşti alır. Bu əməliyyatda bir neçə Azərbaycan xanlığı da iştirak edirdi. Quba, Dərbənd, Qarabağ, Talış, Bakı, Ərdəbil, Cavad və Şamaxı xanlıqları artıq dərk edirdilər ki, yadelli işğalçılara qarşı mübarizədə yalnız birlik hesabına qələbə qazanmaq olar. Bu zaman Rusiya yenidən baş qaldırır. 1796-cı ildə V.Zubovun komandanlığı altında rus qoşunları Azərbaycana hücum edir və Dərbənd, Bakı, Şamaxı, Gəncə, Salyan və Cavadı tutur. Bundan bərk narahat olan Türkiyə Rusiyaya öz etirazını bildirir və Krımı zəbt edəcəyini bəyan edir. Nəticədə rus qoşunları 1797-ci ilin yazında Azərbaycanı tərk edirlər.

### *XIX əsrin əvvəllərində Azərbaycanın Rusiya və İran arasında bölüşdürülməsi*

XIX əsrin əvvəllərindən başlayaraq Rusiya Azərbaycanın zorakılıqla işğal edilməsi planını həyata keçirməyə başlayır. Qazax və Borçalı qəzası, Car - Balakən torpaqları işğal olunur. Zaqatalaya hücum azərbaycanlılar tərəfindən dəf edilir. Gəncənin müdafiəsi də gərgin keçir. Vətənpərvər Cavad xanın başçılığı altında general Sisianovun qoşunlarına ciddi müqavimət göstərirlər. Yalnız qüvvələr tükəndikdən sonra şəhər işğala məruz qalır.

Azərbaycana maraqlarını gizlətməyən Rusiya və İran arasında münasibətlər kəskinləşməyə başlayır ki, bu da 1804-cü il iyunun 10-da birinci rus-İran müharibəsi ilə nəticələnir.

Gəncədən sonra bu dəfə Sisianovun qoşunları Şirvan üzərinə yeriyir və beləliklə, Şirvan xanlığı da işğal olunur. Vəziyyəti belə görən şuşalı İbrahim xan Qarabağ xanlığının könüllü olaraq Rusiyanın tərkibinə keçməsi barədə 1805-ci il mayın 14-də bu ölkə ilə müqavilə imzalayır. Razılaşmaya görə rusların 500 nəfərlik hərbi qüvvəsi Şuşa qalasına daxil olur. Bununla kifayətlənməyən Rusiya 1813-cü il yanvarın 1-də Lənkəran qalasına hücum edərək onu da ələ keçirir. Həmin il oktyabrın 12-də imzalanan Gülüstan müqaviləsinə əsasən, Azərbaycan torpaqlarının Rusiya və İran arasında bölüşdürülməsinin birinci mərhələsi başa çatır. İranla müqayisədə get-gedə qüdrətlənən Rusiya tədricən Azərbaycanın digər xanlıqlarını da işğal edir. Beləliklə, 1828-ci il fevralın 10-da Rusiya və İran arasında Türkmənçay müqaviləsi imzalanır ki, bu da Araz çayı sərhəd olmaqla Azərbaycanın iki dövlət arasında bölüşdürülməsini başa çatdırır.

Beləliklə, cəmi 2-3 əsr əvvəl Yaxın və Orta Şərqdə böyük ərazilərə malik vahid Azərbaycan dövləti aramsız davam edən işğalçılıq müharibələri nəticəsində torpaqlarını get-gedə itirərək parçalanır və nəhayət, Şimali və Cənubi Azərbaycan şəklində iki dövlət arasında bölüşdürülür. Bir əsrə yaxın davam edən dövr ərzində şimalda güclü ruslaşdırma, cənubda isə farslaşdırma siyasəti həyata keçirilir. Lakin bu, Azərbaycan xalqının müstəqilik və istiqlaliyyət arzusunu qəlbindən çıxara bilmir. XX əsrin əvvəllərində Rusiyada baş verən ictimai-siyasi hadisələr və xalqımızın vətənpərvər oğullarının səyi nəticəsində 1918-ci il mayın 28-də Azərbaycan öz siyasi müstəqilliyini dünyaya bəyan edir. Lakin cəmi 23 aydan sonra bu müstəqilliyə Sovet Rusiyası tərəfindən son qoyulur. Nəhayət, 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində başlanan milli azadlıq hərəkatı xalqımızı yenə istiqlaliyyət yoluna çıxarır və 1991-ci ilin oktyabrında Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsi ilə nəticələnir.

Respublikamız XXI əsrə gündən-günə qüdrətlənən, öz müstəqilliyini qorumağa qadir bir dövlət kimi qədəm qoymuş və bu yolda uğurla irəliləyir. Doğrudur, müstəqilliyimizin ilk illərində torpaqlarımızın 20 faizi mənfur qonşu Ermənistan tərəfindən işğala məruz qalıb. Lakin bu gün regionun aparıcı beynəlxalq subyektlərindən birinə çevrilmiş Azərbaycanda uğurlu iqtisadi, daxili və xarici siyasətin aparılması, ordumuzun gücləndirilməsi və ölkəmizin müdafiə qüdrətinin daha da möhkəmləndirilməsi imkan verəcəkdir ki, işğal edilmiş ərazilərimiz erməni qəsbkarlarından tezliklə və qeydşərtsiz azad edilsin.

**Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsi**

## Analitik təhlil

# Medianın “vətənpərvərliyi” niyə xofa çevrilir?

***Son günlərdə cəbhədə olan hadisələr Azərbaycan vətəndaşını ciddi şəkildə narahat edir. Düşmən hər gün, hər saat atəşkəsi pozur. Və Azərbaycan əsgəri düşməni mərdliklə, qətiyyətlə susdurur. Lakin bu yazıda məsələnin başqa tərəfinə toxunmaq istərdim.***

Ötən ilin avqustunda cəbhə xəttində baş verən hadisələrdən sonra bir sıra KİV-lər cəmiyyətə düzgün informasiya çatdırmaq istiqamətində vəzifələrini lazımınca yerinə yetirə bilmədilər. Təmas xəttində yaşanan insidentlə bağlı bir sıra mətbuat orqanlarında yanlış məlumatlar öz əksini tapdı: avqust hadisələrindən sonra informasiya təhlükəsizliyi, dövlət sirrinin qorunması məsələlərində bir sıra problemlər özünü qabarıq göstərdi. Xüsusilə, hərbi birləşmələrin yerdəyişməsi, dislokasiyası, hərbi texnikası haqda məlumatların yayılması dövlət sirrinin bilavasitə pozulmasına dəlalət edir.

Bunların qarşısını almaq məqsədi ilə Prezident İlham Əliyev 2014-cü il sentyabrın 24-də "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ermənistan Respublikasının Silahlı Qüvvələri ilə təmas xəttində bəzi təhlükəsizlik tədbirləri haqqında" sərəncam imzaladı. Sərəncamda informasiya təhlükəsizliyi və hərbi sirrin yayılmasının qarşısının alınmasıyla bağlı məsələlər öz əksini tapdı. Bu sahədə yanlışlıqların aradan qaldırılması üçün dövlət orqanları, xüsusilə Müdafiə Nazirliyi ilə jurnalistlərin qarşılıqlı əməkdaşlığının artırılması, media nümayəndələrinin peşəkarlıq səviyyəsinin inkişaf etdirilməsi, onların akkreditasiya məsələlərinin həll olunmasıyla bağlı tədbirlər görüldü.

Müşahidələrimiz göstərir ki, təmas xəttində düşmənlə qarşıdurmalar ölkə mətbuatında arzuolunan səviyyədə işıqlandırılmır. Bu məsələ ictimaiyyətdə dəfələrlə kəskin narazılıqla qarşılanıb.

Bir məqama xüsusi diqqət yetirmək istərdim. Müharibə vəziyyətində olan ölkənin KİV-ləri necə fəaliyyət göstərməlidir? Hərbi məlumatlar yayımlananda hansı məqamlara diqqət yetirilməlidir?

Məlumdur ki, ölkəmizdə ordu ilə, cəbhədə baş verən hadisələrlə bağlı bütün məlumatları rəsmi şəkildə ictimaiyyətə təqdim edən qurum Müdafiə Nazirliyinin Mətbuat xidmətidir. Ölkə mətbuatı da həmişə Müdafiə Nazirliyinin Mətbuat Xidmətinə istinadən məlumatı yayır.

Lakin bəzən bu fəaliyyətdə anlaşılmazlıq yaranır. Aydındır ki, sadə vətəndaşlar Müdafiə Nazirliyinin Mətbuat Xidməti ilə çox zaman əlaqə saxlamırlar. Orduda baş verən hadisələr birbaşa KİV-dən izlənir.

Məlumat Müdafiə Nazirliyindən rəsmi formada alınır, lakin məlumatı alan informasiya vasitəsi xəbəri olduğu kimi yayımlamır. Mütləq şəkildə ordu xəbərinə də adi xəbərlər kimi başlıq seçir. Belə desək, bu kimi xəbərlər də cəmiyyətə başqa tərzdə təqdim edilir. Nəzərə almaq lazımdır ki, ölkə mətbuatında bu kimi xəbərləri hər kəs oxuyur. Övladı hərbi xidmətdə olan valideyn də, bu övlada güllə atmaq istəyən düşmən də...

Maraqlı bir məqam da var. Əslində, orduda baş verən hadisələrlə bağlı xəbərləri təmas xəttinə yaxın olan bölgələrdə yaşayan əhali soyuqqanlı qarşılayır. Elə burada bir sual yaranır: mərkəzdə yaşayan insanlar da belə münasibət göstərə bilməzmi?

Sualın cavabını təhlil edəndə, aydın olur ki, bölgələrdə yaşayan əhalinin güvəndiyi bir meyar var. Sərhədlərin etibarlı müdafiə olunması. Bakıdan isə bu hadisələri izləyən "xəbər saytları", əksinə, saytın oxucu auditoriyasını artırmağa çalışırlar. Bunu başqa formada izah etmək mümkün deyil.

Məsələn, bu yaxınlarda Müdafiə Nazirliyi gecə cəbhədə olan hadisələrlə bağlı məlumat yayıb və başlıq belədir: "Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində 60 millimetrlik minaatanlardan, qumbaraatanlardan və iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 174 dəfə pozub".

Xəbər saytlarının qoyduğu başlıq isə belədir: "Cəbhədə şiddətli ATIŞMA: düşmən mövqelərinə zərbələr endirildi". Təkcə "şiddətli" sözü cəmiyyəti təşvişə salmaq üçün yetərlidir.

Danılmaz faktdır ki, son vaxtlar cəbhədə baş verən qarşıdurmada həmişə Azərbaycan tərəfi uğur qazanır. Düşmənin hər həmləsinə qətiyyətli cavab verilir. Bəs onda ordu xəbərləri belə başlıqla KİV-lərdə nəyə görə, nə məqsədə yayımlanır?

Çox uzağa getməyək...

Azərbaycan Prezidenti İlham Əliyev ölkə vətəndaşlarının iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında sərəncam imzaladı. Həmin sərəncamla "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2015-ci il iyulun 1-dən 30-dək ehtiyata buraxılması da qeyd edildi.

Sərəncama uyğun olaraq hərbi qulluqçuların ehtiyata buraxılması iyulun 1-dən 30-na qədər davam etdi. Həmin vaxtlar əhali arasında gərginlik vardı. Prezidentin fərmanını oxumayan sadə vətəndaşlar iyulun ilk günlərindən yaxınlarının hərbi xidmətdən qayıtmasını gözləyirdilər.

Yadımdadır ki, qonşumuzda yaşayan bir əsgər anası övladının iyulun 1-də gələcəyini zənn edərək gecə erkən yuxudan qalxıb, hazırlıq görmüşdü. Həmin gün gözlədiyi xəbəri ala bilməyən ana günlərlə özünə gəlmədi. Ananın övladı iyulun 27-də ehtiyata buraxıldı. Onun təsəllisi Prezidentin sərəncamı ola bilərdi, amma KİV-lərdə məsələ ilə bağlı şişirdilmiş xəbərlərə görə, həmin xanım 27 gün təşvişdə qaldı. Sərəncamda qeyd olunan iyulun 1-dən 30-dək tarixini isə insanlara düzgün təqdim edən "media orqanı" tapılmadı.

İndi düşünün, kiminsə valideynlərə bu narahatlığı yaratmağa haqqı varmı? Bütün saytlarda məsələ "şou" başlığı ilə qabardıldı. Hətta cəmiyyətdə müharibənin başlanması ilə bağlı məlumatları da tez-tez eşitməyə başladıq. Bunun əsas qaynağı isə mediada şişirdilmiş xəbərlər idi.

Və, beləcə, hər kəsin övladı hərbi xidmətdən müəyyən olunan vaxtda sağ-salamat qayıtdı. Amma həmin günlər elə bil unuduldu, əksinə, cəmiyyətdə belə xəbərlərin yayımının qarşısı alınmalı, həssas məsələlərə vicdanla yanaşılmalıdır. Bu gün qarşılaşdığımız bu problemlə sabah da qarşılaşacağıq.

Bəli, haqlı sual yaranır ki, bu məsələni necə tənzimləyək?

Nədənsə "hərbi vətənpərvərlik" deyəndə yalnız hərbi xidmətdə olan əsgərlərimiz yada düşür. Unutmaq lazım deyil ki, müharibə şəraitində yaşayan ölkənin hər bir vətəndaşı belə məsələlərə həssas yanaşmalıdır. Sadə vətəndaşlardan tutmuş cəmiyyətə təsir edən dairələr, əsasən də KİV-lər ölkəmizin ordusunu daim qorumağa çalışmalıdır. Ən əsası, heç vaxt unutmaq lazım deyil ki, bizim atdığımız hər bir addıma düşmən ciddi reaksiya verir. Bəlkə də bu kimi məlumatları qabardan və bəzən də tamamilə yalan xəbər yazan sayt işçisi də istəməz ki, əsgər yolu gözləyən insanları intizarda saxlasın. Amma saytların hansı məqsədi güdməsini və bu məqsədin arxasında maraqlı qüvvələrin olmasını düşünməliyik.

Bu gün KİV-lərdə hərbi vətənpərvərlik anlayışının düzgün izahına, təbliğatına ehtiyac var. İnkar oluna bilməz ki, son dövrlərdə Azərbaycan Ordusu kifayət qədər güclənib. Ordumuz müasir silah-sursatla təmin edilib. Son vaxtlarda düşmənə verilən layiqli cavablar da buna əyani sübutdur. İndi hər bir Azərbaycan vətəndaşının öhdəsinə düşən borc və məsuliyyət, bu ordunu qarayaxmalardan qorumaqdır.

Ordunu qorumaq fikrini işlətdiyim anda onu düşünürəm ki, sosial mediada, mətbu orqanlarda yazdığımız hər bir sözdə ehtiyatlı olmalıyıq. Yazmağa başlamazdan əvvəl gəlin yaxşı-yaxşı fikirləşək: biz də bu ölkənin vətəndaşıyıq, Vətənə övladlıq borcumuz var. Ordunu qarayaxmalardan qorumaq isə hər bir vətəndaşın vicdan məsələsidir.

**Leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu"**



# “Bayrağımız - milli qürurumuzdur”

## Silahlı Qüvvələrin şəxsi heyəti arasında yazı müsabiqəsi

Silahlı Qüvvələrimizin şəxsi heyətinin mənəvi hazırlığı həmişə diqqət mərkəzindədir. Bu istiqamətdə müxtəlif mövzularda geniş miqyaslı tədbirlər həyata keçirilir ki, bunlar da hərbçilərin istər dünyaduyumunun formalaşmasında, istərsə də mənəvi aləminin zənginləşməsində müstəsna rol oynayır.

Müdafiə Nazirliyi Şəxsi Heyət Baş İdarəsinin Silahlı Qüvvələrin şəxsi heyəti arasında "Bayrağımız - milli qürurumuzdur" mövzusunda yazı müsabiqəsi elan etməsi də bunun təzahürüdür. Belə bir müsabiqənin keçirilməsi Silahlı Qüvvələr və qoşun növləri, Əlahiddə Ümumqoşun Ordu, birlik və birləşmələrdə mənəvi-psixoloji hazırlığın daha intensiv təşkilinin təmin edilməsində vasitə olacaqdır.

Müsabiqəyə təqdim edilən yazılara Şəxsi Heyət Baş İdarəsi rəisinin əmri ilə müəyyənləşdirilmiş komissiya tərəfindən baxılacaq, daha əhatəli, məzmunlu, bədii yazılar seçilərək qaliblər müəyyənləşəcək.

Yazı müsabiqəsi noyabr ayının 9-da yekunlaşacaq.

Müsabiqədə fərqlənənlər həm Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam Nizamnaməsinə uyğun olaraq həvəsləndiriləcək, fərqlənən yazılar "Azərbaycan Ordusu" qəzetində dərc ediləcək, həm də qaliblər Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsi tərəfindən mükafatlandırılacaq:

I yer - 200 manat
II yer - 150 manat
III yer - 100 manat

**"Azərbaycan Ordusu"**

# Hərbi hissədə əlamətdar gün



***"N" hərbi hissəsinin yaradılmasının 23-cü ildönümünə həsr olunmuş təntənəli mərasim şəxsi heyətin düzülüşü barədə raportla başlandı. Sonra hərbi marşın sədaları altında hərbi hissənin döyüş bayrağı meydana gətirildi. Müstəqilliyimizin rəmzi olan Dövlət himni oxundu. Xalqımızın ümummilli lideri Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi.***

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun və birlik komandirinin şəxsi heyətə təbrikləri oxundu.

Zabit Etibar Səfərov çıxış edərək ölkəmizdə həyata keçirilən böyük quruculuq işlərinin uğurla davam etdirildiyini və ordumuza dövlət rəhbərliyi tərəfindən yüksək qayğı göstərildiyini bildirdi. Qeyd etdi ki, bu qayğının nəticəsində Silahlı Qüvvələrimiz sürətlə inkişaf edərək müasir ordular səviyyəsinə yüksəlib, hazırda Cənubi Qafqazda ən güclü ordudur. Qarşıda duran əsas vəzifə işğal altında olan torpaqlarımızın azad edilməsidir. "Gündən-günə hərbi qüdrətini artıran ordumuz vətən uğrunda döyüşlərə hazırdır", - deyə zabit vurğuladı.

Zabit Rüstəm Çələbiyev çıxışında hərbi hissənin keçdiyi döyüş yolundan danışdı. Məlumat verdi ki, hərbi hissə çətin və mürəkkəb şəraitdə fəaliyyətə başlasa da, ilk gündən düşmənə qarşı hərbi əməliyyatlarda iştirak edib. "Ağdərə, Tərtər, Murovdağ döyüşlərində, həmçinin, ölkənin suverenliyi uğrunda hərbi əməliyyatlarda 239 nəfər döyüşçümüz şəhid olub. Şəxsi heyətimizin hər bir üzvü igid, qəhrəman oğulların layiqli davamçısı olmaq üçün bu gün də fədakarlıqla çalışır, müsəlləh əsgər kimi Vətən borcunu şərəflə yerinə yetirir".



Döyüş hazırlığında fərqlənən hərbi qulluqçuların mükafatlandırılması haqqında komandanlığın əmri oxundu. Nümunəvi əsgər və zabitlərə fəxri fərmanlar təqdim olundu. Zabit Kamil Duniyevə, gizir Elnur İsgəndərova, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Elnur Hüseynova qiymətli hədiyyələr verildi. Xidmətdə fərqlənən əsgərlərə qısa müddətli məzuniyyət verilməklə təşəkkür elan edildi. Sonda kəşfiyyat bölüyünün çıxışı alqışlarla qarşılandı.

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

## Xarici ölkə ordularında

# “Gecə ovçusu”

***Hücum Mi-28H "Gecə ovçusu" helikopteri hərbi əmliyyatlarda düşmənin zirehli texnikasının, canlı qüvvəsinin, düşmənin müdafiə tikililərinin, kiçik üzən vasitələrinin məhv edilməsi üçün istifadə edilir. Üzərində ikili hidromexaniki idarəetmə sistemi quraşdırılıb. Sistemi təyyarəçi və operatorun kabinəsindən də idarə etmək olar.***



Helikopterin heyəti 2 nəfərdən ibarətdir, sürəti saatda 300 kilometr, uçuş məsafəsi 1100 km, maksimal çəkisi isə 11500 kiloqramdır. Helikopter aşağı hündürlükdə (5-15 metr) gecə və gündüz vaxtlarında uçuş həyata keçirməyə qadirdir. Yüksək sürətli uçuş xüsusiyyətlərinə və manevretmə qabiliyyətinə malikdir. Qısa müddət ərzində hədəfləri aşkarlayıb məhv edə bilir. Atıcı silah və zenit artilleriyasının kiçik kalibrli mərmilərinə qarşı zirehlənib.

Mi-28H maşınının layihələşdirilməsinə 1980-ci ildə başlanılıb. 1982-ci ilin noyabrında isə havaya qalxıb. Sonralar onun bazası əsasında Mi-28H "Gecə ovçusu" helikopteri hazırlanıb. Helikopterin silahlanmasına da əlavə edilən idarə olunmayan aviasiya raketi (80 və 130 mm) və aviasiya topları hərəkət etməyən top konteynerlərində yerləşdirilib. Helikopterlərdən minaların qoyulmasında da istifadə edilir.

Göstərilənlərdən başqa, helikopter kompleksinin tərkibinə optik nişangah stansiyası, optik, televiziya müşahidə kanallı lazer məsafə ölçəni, təyyarəçinin gecəgörmə eynəyi, peyk naviqasiya, radiolokasiya sistemi də daxildir. Burada quraşdırılan radiolokasiya sistemi hədəflərin axtarışına imkan verir.

Bu helikopter döyüş əməliyyatları gedən əraziyə İl-75 təyyarəsində də aparıla bilər. Maşında 2200 at gücündə elektron sistemli qazborulu mühərrik də quraşdırılıb. Burada infraqırmızı şüaların qarşısını almaq üçün qurğu da var. Heyətin xilas edilməsi üçün xilasetmə sistemi, hərəkət edən tank topu ilə birlikdə top qurgusu (dəqiqədə 900 atış, 30 mm-kalibrli, döyüş dəsti 250 mərmi). Qanadlarının altındakı asılqanın dörd nöqtəsində 16 ədəd radikomanda tuşlama sistemi ilə "Şturm" TƏİR və yaxud da "Ataka-B" tuşlama radiolokasiya sistemi də asıla bilər. Helikopterin konteynerində müxtəlif silahlanma yerləşdirilib.

Hazırda "Rostovvertol" zavodu əfsanəvi Mi-28H "Gecə ovçusu" döyüş helikopterinin modernləşdirilmiş versiyasının seriyalarla istehsalına hazırlaşır.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# “Vətənin keşiyində dayanmaq qürurvericidir”

***Qarabağ dağ silsiləsinin ətəklərində - Füzuli rayonunda yerləşən “N” hərbi hissəsindəyik. Burada əhalinin çox hissəsi kənd təsərrüfatı ilə məşğul olur. Rayonun iqtisadiyyatında taxılçılıq, heyvandarlıq və tərəvəzçilik aparıcı rol oynayır. Bu, yol boyu bərəkətli əkin sahələrindən, otlaqlarda mal-qaradan da aydın görünür.***

1993-cü ildən bu ərazinin bir hissəsi ermənilər tərəfindən işğal olunub. Lakin Azərbaycan Ordusunun həmin ilin dekabrında güclü əks-hücum əməliyyatı nəticəsində 21 kənd və Horadiz qəsəbəsi işğaldan azad olunub. Dinc əhali doğma ocaqlarına qayıdaraq öz normal həyatlarını bərpa edib. Atəşkəs müqaviləsi imzalanıb. Lakin gözlərini bizim torpaqlardan çəkməyən mənfur qonşularımız öz işğalçılıq niyyətlərindən çəkinmirlər.



Cəbhənin bütün istiqamətlərində olduğu kimi, Füzuli rayonu ərazisində də atəşkəs tez-tez pozulur. Azərbaycan əsgəri düşməni susdurur, düşmənə ordumuzun gücünü hər addımda göstərir. Səfərimizin məqsədi də belə əsgərlərimizlə görüşmək idi.

"N" hərbi hissəsinin nəzarətində olan ərazilərdə düşməni cavab atəşi ilə susduran, gözlərini qırpmadan torpaqlarımızın keşiyində duran əsgərlərimizlə birlikdəyik. Müasir standartlara cavab verən yataqxana, istirahət otağı, hamam və camaşırxana ilə tanışlıq zamanı təmizliyin, səliqə-sahmanın şahidi olduq. Ən ucqar postlarda da bu cür şərait yaradılması Ali Baş Komandan İlham Əliyevin və Müdafiə naziri general-polkovnik Zakir Həsənovun hərbi qulluqçularımıza olan diqqət və qayğısının bariz nümunəsidir.

Döyüş növbətçiliyini təhvil verən əsgərlərlə həmsöhbət olanda onların asudə vaxtlarını necə keçirməsi ilə maraqlandıq. İstirahət otağında olan əsgərlərimizə yaxınlaşdıq. Qarşılarında hərbi jurnal və qəzetlər olan əsgərlərimizlə söhbət elədik. Məzahir Muradov hərbi xidmətə Ağdam rayonundan çağırılıb. O, asudə vaxtını səmərəli keçirməyindən danışaraq dedi:

- Mən ilk öncə postda yaradılmış şəraitdən razılığımı və heç bir çətinlik çəkmədən xidmət etdiyimi vurğulamaq istəyirəm. Göstərilən diqqət və qayğı hər birimizin ürəyincədir. Azərbaycan əsgəri adını daşımaqla fəxr edirəm. Asudə vaxtlarımda səliqə-sahmanla, idmanla məşğul olur, hərbi qəzet və jurnalları oxuyuram, televizora baxıram.

Növbəti həmsöhbətlərim isə ön xətdə xidmət etdikləri üçün fəxr hissi duyduqlarını deyən əsgərlər Mehdi Əsgərli və Kənan Şıxəmirov oldu. Bir ildir ki, hərbi xidmətdə olan əsgərlər təmiz və səliqəli yataqxananın, yemək otaqlarının, hamamlarının olduğunu dedilər. Həmçinin, asudə vaxtlarını səmərəli keçirdiklərini, istirahət guşəsinin hərbi jurnallar, qəzetlər və televizorla təmin olunduğunu diqqətimizə çatdırdılar. Bundan başqa, daim idmanla məşğul olduqlarını da qeyd etdilər.

Asudə vaxtında silahına qulluq edən əsgər Eldar İbrahimova yaxınlaşdıq. Hərbi xidmətə Quba rayonundan çağırılan Eldar dedi:

- On beş aydır ki, ön xətdə xidmət edirəm. Vətənin keşiyində dayanmaq qürurvericidir. Asudə vaxtlarımda idmanla məşqul oluram. Jurnal və qəzetlər oxuyub hərbi biliklərimi artırmağa səy göstərirəm. Uşaqlıqdan silahlara marağım olub, buna görə də hərbi jurnallardan silahlar haqqında məqalələr oxuyuram. "Azərbaycan Ordusu" qəzeti də həvəslə oxuduğum qəzetlərdəndir.

Vətən sevgisi gözlərindən duyulan vətənpərvər döyüşçülərimizlə tanışlıq qürur doğurur. Torpaqlarımızın azad olunacağı günün yaxın olduğunu bir daha hiss edirəm.

**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik
Şəfaət Mehdiyev küçəsi 144,
“Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
Rəşid HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur.
“Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 793
Nüsxə 4710